# Azərbaycan Xalq Çalğı Alətləri orkestri



Azərbaycan Respublika Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin S.Rüstəmov adına Xalq Çalğı Alətləri orkestri – 1932-ci il may ayının 1-də Ü.Hacıbəyli tərəfindən yaradılmışdır. 22 nəfərlik orkestrin dirijoru Üzeyir bəy, dirijor köməkçisi və konsertmeysteri S.Rüstəmov olmuşdur. Bu, notla çalan ilk Azərbaycan Xalq Çalğı Alətləri Orkestri idi. Üzeyir Hacıbəyli Azərbaycan xalq mahnı və rəqslərini bu orkestr üçün işləmiş, Qərbi Avropa və rus bəstəkarlarının ıəsərlərini də orkestrə uyğun təfsir etmişdi. Hacıbəyli orkestrin repertuarını zənginləşdirmək məqsədilə ilk növbədə S.Rüstəmovu, Q.Salahovu və b. bu işə cəlb edir. Onların orkestr üçün işləmələri kollektivin püxtələşməsində və ifaçılıq məziyyətlərinin artırılmasında xüsusi rol oynamışdır. 1932-ci ilin axırlarında Üzeyir bəy bu orkestr üçün iki böyük əsər – I və II fantaziyalarını yazır. 1933-cü ildə orkestrin tərkibi bir qədər böyüyərək 30 nəfərə çatır. Get-gedə xalq çalğı alətləri üçün yeni-yeni əsərlər yaranmağa başlayır. 1935-ci ildə orkestrə rəhbərlik etmək Üzeyir Hacıbəylinin tələbəsi Səid Rüstəmova tapşırılır. Orkestrin tərkibinə fortepiano daxil edilir. 1937-ci ildə artıq 40 nəfərdən ibarət olan orkestr özünün ilk qastrol səfərlərində - Moskva və Leninqradda böyük müvəffəqiyyətlə çıxış edir. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə orkestrin ifası xüsusi olaraq qeyd edilmişdi. Həmin il aprelin 9-da Böyük teatrın səhnəsində Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasını xalq çalğı alətləri orkestri müşayiət etdi (Hacıbəyli musiqili komediyanın musiqisinin xalq çalğı alətləri üçün orkestrləşdirilməsini və dirijorluğu S.Rüstəmova həvalə etrmişdi). Sonralar da Ü.Hacıbəyli M.Maqomayev və S.Rüstəmovla yanaşı, F.Əmirov, Niyazi, S.Ələsgərov, Ə.Abbasov, S.Hacıbəyov, C.Cahangirov, H.Xanməmmədov, A.Gəray və b. bu kollektiv üçün orijinal əsərlər yazmışlar (Üzeyir Hacıbəyli ensiklopediyası. Bakı: Şərq-Qərb,2008, səh.24).

**Uzun illər bu kollektivə Səid Rüstəmov rəhbərlik edib və onun xatirəsinə ithaf olaraq orkestrə Səid rüstəmovun adıverilib. Səid Rüstəmovdan sonra orkestrin rəhbəri və baş dirijoru Xalq artisti Nəriman Əzimov olub. Hal-hazırda Azərbaycan tele-Radio verilişləri QSC-nin nəzdində fəaliyyət göstərən orkestrin bədii rəhbəri və baş dirijoru Əməkdar artist Faiq Sadıqovdur. 90 illik bir tarixi olan Azərbaycan Xalq Çalğı Alətləri Orkestrini də yaradan Üzeyir bəy yaşadan isə dahi sənətkarın davamçılarıdır.**